***Bahar QASIMLI*** *

# A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTUNDA HEYDƏR ƏLİYEV İRSİNİN ARAŞDIRILMASINA DAİR

**Açar sözlər:** Heydər Əliyev, müstəqillik, Tarix İnstitutu, inkişaf
**Key words:** Heydar Aliyev, independence, İnstitute of History, development
**Ключевые слова:** Гейдар Алиев, независимость, Институт истории, развитие

XX əsr Azərbaycan tarixinin ən parlaq və nadir tarixi şəxsiyyətlərdən biri olmaqla Heydər Əliyevin ölkəmizin mükəmməl dövlət quruculuğu konsepsiyasını işlənib hazırlanmasında və həyata keçirilməsində mühüm xidmətləri olmuşdur. Hələ 70-ci illərdə məhz Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü yaşanmışdı. Tarixin yetişdirdiyi görkəmli şəxsiyyətlərdən olan Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin və iki minilliyin qovşağındakı Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq, üçüncü minilliyə inamla qədəm qoymuşdur. Heydər Əliyev zəkası bütün sədləri yararaq və qarşıya çıxan heç bir çətinliyə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır. Dünya tarixinə öz adını qızıl hərflərlə yazdıran nadir dühalar içərisində Heydər Əliyev özünəməxsus yer tutmuşdur. Ulu Tanrının ona bəxş etdiyi nadir keyfiyyətlər sayəsində Heydər Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini əvvəlcədən müəyyən edə bilir, milli tarix üçün olduqca böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi nümayiş etdirir, tam qətiyyətlə hərəkət etməyi bacarırdı. Sarsılmaz məntiq üzərində qurularaq qeyri-adi dərəcədə böyük təsir gücünə malik məruzə və nitqləri Heydər Əliyevin fəlsəfi və siyasi dünyagörüşündəki dərinliyin və genişliyin açıq ifadəsidir (8).

Heydər Əliyevin ölkəmizə əvvəlki rəhbərliyi dövründə görülmüş əzəmətli quruculuq işləri, bunun nəticəsində xalqımızda milli müstəqillik duyğularının, azadlıq ideyalarının oyanışı tədqiqatçılar tərəfindən, ilk növbədə həmin dövrü araşdıran tarixçilər tərəfindən son illərədək əməlli-

* **Qasımlı Bahar** - A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı



20

başlı, əhatəli şəkildə və dərindən araşdırılmamışdı. Bu baxımdan Heydər Əliyev irsinin araşdırılmasının müxtəlif aspektləri işlənsə də, onun ictimai-siyasi fəaliyyətinin tarixşünaslığımızda əks olunmalı məsələsi indiyədək tədqiqat obyekti olmamışdır. Ona görə də Heydər Əliyev irsinin öyrənilməsinin akademik səviyyədə təşkilinə ehtiyac vardır. Bu məqsədlə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda Yaqub Mahmudovun təşəbbüsü ilə Heydər Əliyev irsinin dərindən və əhatəli şəkildə öyrənilməsi üçün Əliyevşünaslıq şöbəsi yaradılmış, geniş tədqiqat işlərinə başlanmışdır. Bu sahədə ilkə imza atan Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsi Heydər Əliyev irsinin araşdırılması ilə bağlı geniş tədqiqatlarını yorulmadan davam etdirir. Bu işin davamı olaraq Tarix İnstitutu Ümummilli liderin həyat və fəaliyyətinə həsr edilmiş iki cildlik «Heydər Əliyev» fundamental monoqrafiyasının elmi redaktəsini başa çatdıraraq çapa təqdim etmiş və əsər 2013-cü ildə nəşr olunmuşdur. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəşri olan "Heydər Əliyev" fundamental elmi araşdırmasının I cildində arxiv materiallarından geniş istifadə olunmuşdur və Ulu Öndərin dövlətçilik fəaliyyətinin hərtərəfli şəkildə öyrənilməsinə zəmin yaradır. Adıçəkilən əsərin I cildi dahi şəxsiyyətin ömür yolunun müstəqillik illərinə qədərki dövrünü, əsərin II cildi Heydər Əliyevin ömür yolunun müstəqillik dövrünü əhatə edir. Əsər Ulu Öndərin dövlətçilik fəaliyyətinin akademik səviyyədə araşdırılması yolunda ilk addımdır (4, s.11).

Heydər Əliyev irsinin araşdırılması və tədqiqində görkəmli tarixçimiz, A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudovun müstəsna xidmətlərini xüsusi vurğulamalıyam. Belə ki, tarix elmində öz sözünü demiş akademik Yaqub Mahmudov Heydər Əliyev irsinin öyrənilməsindəki yorulmaz əməyini rəhbərlik etdiyi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda da ardıcıl davam etdirir. Fikrimcə Yaqub Mahmudov Əliyevşünaslıq irsini tam və dərindən araşdıran və bu sahədə öz fəaliyyətini yorulmadan davam etdirən əvəzolunmaz ustaddır. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunda Heydər Əliyev irsi ilə bağlı aparılan çoxsaylı tədqiqatlar buna bariz nümunədir. Tarix İnstitutunda aparılan elmi-tədqiqat işləri ölkə Prezidenti İlham Əliyevin göstərişləri, çağırış və tövsiyələri əsasında həyata keçirilir.





Görkəmli alimimiz Yaqub Mahmudovun "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" monoqrafiyası Əliyevşünaslığa öz töhfəsini vermiş dəyərli əsərlərdən hesab olunur. Əsərdə tarixçi alimimiz konkret dəlillərə əsaslanan fikirlər irəli sürməklə Heydər Əliyev irsini dərindən təhlil etmiş, onun həmişə doğma xalqa, vətəninə bağlı olmasını bildirmiş, onun respublikamıza rəhbərliyi dövründə gördüyü böyük quruculuq işləri haqqında da fikirlər bildirmişdir (4, s.87).

Akademik Yaqub Mahmudovun əsərdə qeyd etdiyi "1969-cu ildə Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlməsi nəticəsində tariximizdə müstəqilliyə doğru böyük dönüş və milli oyanış dövrü başlandı", "Azərbaycanımızı bu günkü müstəqil həyata hələ keçən əsrin 70-80-ci illərinin əvvəllərində məhz Heydər Əliyev şəxsiyyəti hazırlamışdır" fikirlərinin konkret faktlarla əsaslandırılması tarixşünaslığımızda həm məzmun baxımından, həm də dövrləşdirmə baxımından mühüm addım, Əliyevşünaslıq elmində yenilikdir.

Akademik, A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov əsərin digər bölmələrində ümummilli lider Heydər Əliyevin böyük dövlət xadimi və nüfuzlu siyasətçi kimi Azərbaycanın milli dövlətçiliyinin möhkəmləndirilməsi, inkişaf strategiyasının müəyyənləşdirilməsi, hüquqi dövlət quruculuğu sahəsində atdığı addımları hərtərəfli təhlil etmiş və yüksək qiymətləndirmişdir. Alim düzgün olaraq tarixşünaslığımızda ilk dəfə olaraq Heydər Əliyevi Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin əsasını qoyan siyasi lider kimi səciyyələndirir (4, s.13).

Əsərin çox mühüm elmi əhəmiyyət kəsb edən səciyyəvi cəhətlərindən biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ümummili lider Heydər Əliyevin siyasi kursunun müvəffəqiyyətlə davam etdirilməsi istiqamətində ardıcıl və prinsipial fəaliyyətinin geniş və əhatəli şəkildə əks etdirilməsidir.

Azadlıq, müstəqillik hər bir millət, hər bir xalq üçün əvəzsiz nemətdir. Biz müstəqilliyimiz üçün neçə-neçə qəhrəmanlar vermiş, nə qədər çətin və keşməkeşli yollardan keçərək azadlığımıza qovuşmuşuq. Bütün bu çətinliklərdən alnıaçıq çıxmağımızda dahi siyasi xadim Heydər Əliyevin xidmətləri müstəsna əhəmiyyət kəsb edir. Bu nöqteyi-nəzərdən görkəmli akademik Yaqub Mahmudovun "Heydər Əliyev ideyalarının zəfər yürüşü" əsəri təqdirəlayiqdir. Adıçəkilən əsər Heydər Əliyev irsinin tam və

hərtərəfli öyrənilməsində xüsusi rola malikdir. Tarixçi alimimiz Yaqub Mahmudov ilk dəfə Ulu Öndərin hərtərəfli nəzər salır. "Heydər Əliyev ideyalarının zəfər yürüşü" kitabında Heydər Əliyevin dövlətçilik tariximizdəki xilaskarlıq rolu, həyata keçirdiyi islahatlar, quruculuq işləri, beynəlxalq əlaqələr və s. kimi mövzulara toxunan akademik, eyni zamanda bu fikirləri konkret dəlillərə söykənən faktlarla əsaslandırmışdır. Bu qiymətli əsərdə Heydər Əliyevin tarix elminin tərəqqisinə verdiyi xidmətləri, ulu keçmişimizin dərindən araşdırılmasının təbliğinə göstərdiyi qayğı da öz əksini tapmışdır. Həmin kitab nəinki tarixçilər, hətta Heydər Əliyev irsi ilə maraqlananlar üçün də olduqca rəvan, axıcı, səmimi bir dildə yazılmışdır. Bütün bu deyilənlərə əsasən "Heydər Əliyev ideyalarının zəfər yürüşü" kitabı Tarix İnstitutunun direktoru. Akademik Yaqub Mahmudovun sanballı əsərləri siyahısında durmaqla Əliyevşünaslığa dəyərli töhfədir (3, s.7). Tarix İnstitutu Heydər Əliyev irsinin əhatəli səpkidə araşdırılması sahəsində mühüm uğurlar əldə etmişdir.

Akademik Yaqub Mahmudovun rəhbərliyi altında yaradılan və fəaliyyət göstərən "Əliyevşünaslıq" şöbəsi Tarix İnstitutunda aparılan struktur islahatlarına müvafiq olaraq, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 02 aprel 2008-ci il tarixli qərarı ilə yaradılmışdır. Şöbə əvvəlcə "Heydər Əliyev irsini tədqiqi" şöbəsi kimi fəaliyyətə başlamış, 2010-cu ildə isə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə "Əliyevşünaslıq" şöbəsi adlandırılmışdır. Şöbədə 10 nəfər elmi əməkdaş çalışır. Şöbənin əsas elmi-tədqiqat istiqamətini Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin tədqiqi təşkil edir. Şöbəyə tarix üzrə elmlər doktoru Ədalət Qasım oğlu Qasımov rəhbərlik edir. Şöbə və institutun əməkdaşları tərəfindən ikicildlik "Heydər Əliyev" monoqrafiyasının II cildi, "Heydər Əliyev. Azərbaycan elminin keşiyində" (2 cildlik sənədlər və materiallar toplusu), "Azərbaycan Respublikasının tarixi" 2 cildlik monoqrafiyaları hazırlanaraq nəşr edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinin qeyd edilməsi ilə bağlı 21 yanvar 2013-cü il tarixli sərəncamı ilə bağlı Tarix İnstitutu Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş iki cildlik "Heydər Əliyev" monoqrafiyası və "Heydər Əliyev. Azərbaycan elminin keşiyində"sənədlər və materiallar toplusunu qısa





müddət ərzində çapa hazırlamış və nəşr etdirmişdir. Həmin toplu Tarix İnstitutunun Heydər Əliyev irsinin arxiv materiallar əsasında tərtib olunmuş ilk akademik nəşridir. "Heydər Əliyev Azərbaycan elminin keşiyində" sənədlər və materiallar toplusunun I cildində Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə ölkəmizdə elmin, maddi-texniki bazanın və kadr potensialının inkişaf etdirilməsi, elmi tədqiqat işlərinin genişləndirilməsi, elmi tədqiqat mövzularının təkmilləşdirilməsi ilə bağlı qərar və sərəncamlar qəbul edilmişdir. Toplunun II cildinə Heydər Əliyevin hakimiyyətinin ikinci dövründə (1993-2003) elm siyasəti ilə bağlı həyata keçirdiyi material və sənədlər daxil edilmişdir.

Tarix İnstitutu direktor Yaqub Mahmudovun rəhbərliyi ilə 2016-cı ildə dövlət müstəqilliyimizin 25 illiyi münasibətilə "Azərbaycan Respublikasının tarixi (1991-2016). Tarixi-biblioqrafik araşdırma" kitabını nəşr etdirmişdir. AMEA Tarix İnstitutunda nəşr edilən biblioqrafiya Heydər Əliyev irsinin araşdırılmasında tədqiqatçıların asanlıqla bu sahədə öz məqsədlərinə nail olmasına şərait yaratdı. Biblioqrafiyanın köməyi ilə oxucu zamana və vaxta qənaət etməklə öz məqsədinə asanlıqla nail ola bilər. Həmin biblioqrafiyanı tarixşünaslığımızda mühüm əhəmiyyət kəsb edən uğurlu addım hesab etmək olar. Sözügedən biblioqrafiya vasitəsilə mütaliəçi biblioqrafik göstəricinin köməyi ilə Ümummilli Liderimiz Heydər Əliyevin əsərləri, çıxışları, nitqləri, fərman və sərəncamları, müstəqillik tariximizin ayrı-ayrı dövrləri barədə məlumatları asanlıqla əldə edə bilər (5, s.8).

Belə ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə yazılan və ikicildlik "Azərbaycan Respublikasının tarixi (1991-2003)" kitabını çoxsaylı sanballı əsərlərdən biri hesab olunur. İnstitutu direktoru, akademik Yaqub Mahmudovun rəhbərliyi altında yazılan həmin əsər müstəqillik dövr tariximizin 1991-2003-cü illərini əhatə edir. Əsərin I cildi tariximizin Heydər Əliyev dövrü, II cildi isə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan yenidənqurma və abadlıq işləri haqda dolğun təsəvvür yaradır. "Azərbaycan Respublikasının tarixi (1991-2003)" I cildində çətin bir şəraitdə Heydər Əliyevin müstəqilliyimizin qoruyub saxlamaq üçün gördüyü tədbirlər işıqlandırılmışdır. Heydər Əliyevin Azərbaycan dövlətinin qurulmasında göstərdiyi müstəsna xidmətləri əsərdə özünəməxsus yer tutur. Əsərdə Heydər Əliyevin müstəqil dövlətimizin qurulmasında

göstərdiyi yorulmaz əməyi, doğma xalqı üçün çiyin-çiyinə apardığı mübarizə kimi məsələlərə toxunulmuşdur.

T.ü.e.d. Ədalət Qasımovun "Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası", "Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi", t.ü.f.d. Leyla Hüseynovanın "Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri", t.ü.f.d. Rəhman Hacıyevin "Azərbaycan gəncliyinin himayədarı" adlı monoqrafiyaları, o cümlədən, t.ü.f.d. Sona Qurbanovanın "Гейдар Алиев и внешенеполитический курс Азербайджанской Республики" kitabı işıq üzü görmüşdür. Şöbə əməkdaşları tərəfindən 300-ə qədər məqalə çap olunmuşdur və müxtəlif beynəlxalq elmi konfranslarda məruzələrlə çıxışlar edilmişdir.

Heydər Əliyev irsinin öyrənilməsində arxiv sənədlərinə əsaslanan fundamental araşdırmaçı kimi A.A.Bakıxanov adına Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsinin müdiri, t.ü.e.d. Ədalət Qasımovun "Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi" monoqrafiyası xüsusi diqqət çəkir. Həmin tədqiqat işində indiyədək elmi ictimaiyyətə məlum olmayan arxiv sənədlərindən istifadə olunmuşdur. Uzaqgörən siyasi xadim Heydər Əliyevin həm Sovet Azərbaycanının, həm də müstəqil Azərbaycanın başçısı kimi Naxçıvan Muxtar Respublikasının inkişafı üçün göstərdiyi geniş fəaliyyəti təhlil edilmiş, xüsusilə onun 1990-1993-cü illərdə Naxçıvana göstərdiyi əvəzsiz xidmətləri hərtərəfli işiqlandırılmışdır (5, s.32).

Kitabda istifadə edilmiş sənədlər və materiallar, xüsusən Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası ilə bağlı çıxış və məruzələri, imzaladığı qərarlar və fərmanlar monoqrafiyanın mötəbərliliyini artırmaqla bərabər, muxtar respublikanı müasir siyasi tarixini öyrənmək və araşdırılmasında faydalı mənbə rolunu oynaya bilər (2, s.5).

Xalqımızın dahi oğlu Heydər Əliyev yurdumuzun bu qədim və əsrarəngiz diyarının – Naxçıvanın tarixinə ali məramla, dünya çapında yanaşır və qiymət verirdi: "Azərbaycanın bir hissəsi olan Naxçıvanın tarixi ilə əlaqədar gərək çox fundamental əsərlər yaradaq, bu əsərlərlə də təkcə iddiaçılara cavab verməк yox, bütün dünyaya Azərbaycanın qədim, zəngin tarixini, mədəniyyətini göstərək". Bu baxımdan Ədalət Qasımovun "Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası" kitabı çox əhəmiyyətlidir. Əsərdə XX yüzilliyin 70-80-ci illərini əhatə





edən zaman kəsiyində Naxçıvan Muxtar Respublikasında cərəyan etmiş hadisələr və proseslər, muxtar respublikanın inkişaf məsələləri dərin məlumatlı və məntiqi təfəkkürlü tarixçi düşüncəsi ilə rəvan və ahəngdar şəkildə təqdim olunmuşdur. Akademik Yaqub Mahmudov həmin əsəri yüksək qiymətləndirərək qeyd edir ki, araşdırılan dövrdə Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, təhsilinə, elminə diqqət və qayğısının ən mühüm təzahürlərindən biri kimi Naxçıvan Muxtar Respublikasında bu sahədə böyük canlanma və tərəqqinin olması əsərdə konkret faktlarla işıqlandırılmışdır (6, s.6).

T.ü.f.d. Leyla Hüseynova da A.A.Bakıxanov adına Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsinin gənc tədqiqatçısı kimi Ulu Öndərin irsinə müraciət edir. 2014-cü ildə gənc tədqiqatçı t.ü.f.d. Leyla Hüseynova Yaqub Mahmudovun elmi rəhbərliyi ilə Heydər Əliyev irsinin araşdırılmasında xüsusi rolu olan "Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri" (müstəqillik dövrü) dissertasiyasını müdafiə etmişdir. Leyla Hüseynovanın "Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri" (müstəqillik dövrü) kitabı müasir mərhələdə Heydər Əliyevin Azərbaycan tarixi konsepsiyasının dərindən araşdırılmasında böyük əhəmiyyətə malikdir. Tədqiqatçı Leyla Hüseynova Heydər Əliyevin irəli sürdüyü dövrləşmənin dərin elmi əsaslara malik olduğunu göstərir. Hal-hazırda tədqiqat aparan gənclər üçün bu əsər tarixşünaslığa qiymətli töhfədir.

Ulu Öndərin gənc nəslin geniş fəaliyyət meydanına çıxarılmasında, həmçinin Azərbaycan dövlətinin gənclər siyasətinin formalaşmasında müstəsna xidmətləri olmuşdur. Görkəmli siyasətçi hər sahədə olduğu kimi bu sahəni də diqqətindən kənarda qoymurdu. Ulu öndərimiz Heydər Əliyevin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialın yaradılmasına xidmət edirdi. Heç də təsadüfü deyildir ki, Heydər Əliyev hər zaman gənclərə qayğı ilə yanaşır, onların problemlərini həll etməyə çalışırdı. Bu baxımdan A.A.Bakıxanov adına Tarix İnstitutunda bir neçə gənc alim Heydər Əliyev irsinin öyrənilməsilə bağlı tədqiqatlar aparmış və dissertasiya müdafiə etmişlər. Buna Bəhramova Sevil Böyükağa qızının "Heydər Əliyev və Azərbaycan Respublikasında din siyasəti" dissertasiyasını misal göstərmək olar (6, s.78).

Heydər Əliyev irsinin təbliğində Ulu Öndərin irsi ilə bağlı bir sıra əsərlərin xarici ölkələrdə tərcümə olunub nəşr edilməsi mühüm rol oynayır. Belə ki, 2013-cü il aprelin 17-də Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərində AMEA-nın müxbir üzvü Yaqub Mahmudovun "Heydər Əliyev ideyalarının zəfər yürüşü" kitabının Ukrayna dilinə tərcümə olunmuş versiyasının təqdimatı keçirilib. Tədbirdə Azərbaycanın Ukraynadakı səfiri Eynulla Mədətli, Ukrayna Azərbaycanlıları Konqresinin sədri Rövşən Tağıyev iştirak ediblər. Kitabın müəllifi AMEA Tarix İnstitutunun direktoru, Yaqub Mahmudov tədbirdə "Heydər Əliyev yeni Azərbaycanın qurucusudur" adlı məruzə ilə çıxış etmişdir.

Bu nəşrlərdən əlavə Tarix İnstitutunun direktoru, Yaqub Mahmudovun rəhbərliyi ilə Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş "Dahi Azərbaycanlı" adlı sənədli film çəkilmişdir. Film Ulu Öndərin fəaliyyətinin çoxcəhətli aspektlərinin dünyaya nümayiş olunmasında müstəsna əhəmiyyət kəsb etmişdir. Filmin ssenari müəllifli və aparıcısı Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, Yaqub Mahmudovdur. (7)

Bundan əlavə Tarix İnstitutunun direktoru, akademik Y.M.Mahmudov, elmi işlər üzrə direktor müavini, t.ü.f.d., dos. C.Ə.Bəhramov, «Əliyevşünaslıq» şöbəsinin müdiri, t.ü.e.d., dos Ə.Q.Qasımov və digər əməkdaşlar respublikanın müxtəlif dövlət təşkilatlarının Ümummilli lider Heydər Əliyevin yubileyləri ilə bağlı keçirdikləri elmi praktik konfranslarda iştirak etmiş və məruzlərlə çıxış etmişlər.

Heydər Əliyev irsinin öyrənilməsi və təbliğində AMEA-nın Tarix İnstitutunda fəaliyyət göstərən portal mühüm əhəmiyyət kəsb edir. Portal lazım olan informasiyanın tez tapılmasına köməklik etməklə yanaşı, elmi texniki tərəqqi baxımından da olduqca mühüm əhəmiyyət kəsb edir. Portalın Heydər Əliyev irsinin araşdırılması və dünya ictimaiyyətinə çatdırılmasında xüsusi rolu var.

Beləliklə, Tarix İnstitutunun Əliyevşünaslıq şöbəsinin gördüyü işlər görkəmli akademik Yaqub Mahmudovun rəhbərliyi ilə Heydər Əliyev irsinin hərtərəfli öyrənilməsində və təklif istiqamətində elmi tədqiqat işlərini uğurla davam etdirir.

A.A.Bakıxanov adına Tarix İnstitutunda Ulu Öndərin irsinin hərtərəfli araşdırılmasında yüksək səviyyədə təşkil olunmuş konfransların keçirilməsi, başqa dillərdə kitabların nəşri, dərin elmi tədqiqat işlərinin aparılması böyük əhəmiyyət daşıyır. İnstitutda Heydər Əliyev irsinin öyrənilməsi sahəsində aparılan addımlar həm ölkəmizdə, həm də ölkəmizdən kənarda yüksək qiymətləndirilir. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov, onun təşəbbüsü ilə yaradılan "Əliyevşünaslıq" şöbəsi, şöbə müdiri Ədalət Qasımov, həmçinin institutun bir sıra əməkdaşları, o cümlədən doktorantlar və dissertantlar Heydər Əliyev irsinin dərindən araşdırılmasında akademik fəaliyyətlərini daha da genişləndirməkdədir. Hazırda şöbə Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edən Azərbaycan elminin inkişafı sahəsində misilsiz xidmətlərini əks etdirən monoqrafiya üzərində tədqiqat işlərini davam etdirir.





**Mənbələr və ədəbiyyat**


1. Y. Mahmudov "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti". Bakı, 2002, s.309.
2. Y. Mahmudov "Azərbaycan dövlətçiliyinin xilaskarı". Bakı Altay, 1998, s.44
3. Ədalət Qasımov "Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi" Bakı, 2013, s.263.
4. Y. Mahmudov "Heydər Əliyev ideyalarının zəfər yürüşü" Bakı-2011, s.525
5. Y. Mahmudov "Heydər Əliyev Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar toplusu". 2 cilddə. Bakı, 2013.
6. Y. Mahmudov "Azərbaycan Respublikasının tarixi (1991-2016). Tarixi-biblioqrafik araşdırma". Bakı.2016, s.372.
7. Ə. Qasımov- "Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası" Bakı, 2009, s.302.
8. L.Hüseynova- "Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri" (müstəqillik dövrü) Bakı, 2011, s.213
9. http://azerbaijan.az/portal/Society/Leader/nationwideLeader_02 _a.html-1
10. http://ikisahil.com/post/eliyevshunasliq-elmi-mektebinin-yaradicisi?fbclid=IwAR0KS6
11. Якуб Махмудов. Переможний хід ідей Гейдара Алиєва. – Киев: Видавничий дім Дмитра Бураго, 2013, 680 стр

## RESEARCH OF HEYDAR ALIYEV HERITAGE IN HISTORY INSTITUTE


### SUMMARY

At A.A.Bakikhanov's Institute of History, it is of utmost importance to conduct highly-qualified conferences in the comprehensive investigation of the Great Leader's heritage, publish books in other languages, and carry out extensive scientific research. The steps taken in the study of the heritage of Heydar Aliyev in the Institute are highly appreciated both in our country and abroad. Director of the Institute of History of AMEA Yagub Mahmudov, the head of the department "Aliyev studies" Adalat Gasimov, and also a number of institutes, including doctors and dissertants, are expanding their academic activity in the deep study of Heydar Aliyev's heritage.


## К ВОПРОСУ ИЗУЧЕНИЯ НАСЛЕДИЯ ГЕЙДАРА АЛИЕВА В ИНСТИТУТЕ ИСТОРИИ ИМ.А.А.БАКИХАНОВА НАН АЗЕРБАЙДЖАНА


### РЕЗЮМЕ

Изучение наследия общенационального лидера Г.Алиева, которое ведется в Институте истории путем издания книг на различных языках, научных конференций на высоком уровне и т.д. имеет большое научное и практическое значение. Деятельность Института в этой области высоко оценивается, как в самой республике, так и за ее пределами. Созданный с этой целью по инициативе директора Института истории НАН Азербайджана академика Ягуба Махмудова научно-исследовательский отдел ведет глубокие исследования в этом направлении.